## Sumqayıt Dövlət Universiteti – 55

# A.Tağıyev: "SDU-da keçirdiyim günlərimi qürur hissi ilə yad edirəm"



*Azərbaycanın nüfuzlu ali məktəblərindən biri - Sumqayıt Dövlət Universitetinin 55 illiyi yaxınlaşır. Bu ərəfədə universitetin müəllimi, iqtisad üzrə fəlsəfə doktoru, ömrünün 50 ilini bu doğma təhsil ocağının divarları arasında gənclərimizin təhsilinə həsr etmiş Albert Tağıyevdən universitet, ən əsası isə İqtisadiyyat fakültəsinin yaranması və özünün burada fəaliyyəti haqqında fikirlərini bölüşməyi xahiş etdik. Albert müəllimlə müsahibəni nəzərinizə çatdırırıq.*

**- Albert müəllim, necə oldu ki, taleyinizi Sumqayıt Dövlət Universiteti ilə bağladınız, fasiləsiz olaraq bu universitetdə işlədiniz?**

- Etiraf edim ki, mənə Sumqayıt Dövlət Universitetinin (SDU) 55 illiyilə əlaqədar müsahibə vermək təklif edildikdə çox həyəcan keçirdim. Nədən başlamalı, universitetlə bağlı hansı əlamətdar günləri, inkişaf və tədrislə bağlı hansı məsələləri yada salmaq və ən əsası universitetdə İqtisadiyyat fakültəsinin yaradılması və inkişafı ilə əlaqədar olan hansı faktları qeyd etməli olduğumu çox götür-qoy etdim. Həyəcanım səbəbsiz deyil. Ömrünün 50 ilini universitetdə fəaliyyətdə olan və bu universitetlə paralel inkişaf edən və yetkinləşən bir insanın keçirdiyi hissləri anlamaq o qədər də çətin deyil.

Öncə SDU-nun və İqtisadiyyat fakültəsinin yaranması və inkişafı ilə bağlı olan məsələlərə diqqət yetirək. SDU-nun inkişafı beş mərhələdən keçmişdir: Azərbaycan Neft Kimya İnstitutunun (AzNKİ) Sumqayıtda Tədris məntəqəsi (1961-1962), AzNKİ-nin Sumqayıt filialı (1962-1975), AzNKİ-nin filialı, eyni zamanda, Sumqayıt Ali Texniki Təhsil məktəbi (ATTM) (1975-1992), Azərbaycan Sənaye İnstitutu (1992-2000) və Sumqayıt Dövlət Universiteti (SDU) (2000).

İqtisadiyyat fakültəsi 1996-cı ildə yaradılmış, sonralar onun adı dəyişdirilərək "İqtisadiyyat və idarəetmə" fakültəsi adlandırılmışdır. Fakültə yarananadək ilk iqtisadi kafedra - "Müəssisələrin iqtisadiyyatı və idarə edilməsi" kafedrası 1983-cü ildə yaradılmışdır. 1991-ci ildə universitetə mühəndis iqtisadiyyatı ixtisası üzrə tələbə qəbulu olmuşdur. 1996-cı ildə İqtisadiyyat fakültəsi yaradılmışdır və fakültənin ilk dekanı vəzifəsi mənə həvalə olunmuşdur.

**- Bir qədər özünüz haqqında danışın. Eşitdiyimizə görə, Siz riyaziyyatçısınız...**

- Bəli, 1965-ci ildə Azərbaycan Dövlət Universitetinin mexanika-riyaziyyat fakültəsinin riyaziyyatçı ixtisasını bitirmişəm. Odur ki, SDU-da əvvəlcə riyaziyyat, sonra isə mexanika kafedrasında dərs keçirdim. Müəllim çatışmazlığı səbəbindən elə olurdu ki, 500 saatdan çox dərs keçməli olurdum. Nəhayət, 1974-cü ildə ştata keçərək, Kimya İstehsalının Maşın Aparatları kafedrasına baş müəllim vəzifəsinə qəbul edildim. 1980-ci ildə Avtomatika kafedrasına keçdim. Bu kafedrada tədris etdiyim əsas fənn indiki proqramlaşdırma fənninin sələfi olan Hesablama texnikasının mühəndis iqtisadi hesablamalarında tətbiqi idi. Bu fənn üzrə dos. V.A.Balayevlə (hazırda Texniki Kibernetika kafedrasının dosenti) birgə hazırladığımız metodik iş müvəffəqiyyətlə AzNKİ-də tədrisdə istifadə edilirdi. Nəhayət, 1983-cü ildə SDU-da "Müəssisənin iqtisadiyyatı, təşkili və idarə edilməsi" kafedrası yaradıldı. Mən həmin kafedraya dosent təyin olundum. Kafedra müdiri mərhum dosent A.Babayev idi. Bu kafedranın 1988-1996-cı illərdə müdiri vəzifəsini mən icra etmişəm. Kafedranın əməkdaşları dos. Ə.X.Nuriyev (hazırda Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü), mərhum dos. V.Məhərrəmov, baş müəllimlər B.İsayeva, M.Ələmmədov, B.Orucəliyeva, İ.Əmirov və başqaları idi. Bu əməkdaşlardan B.Orucəliyeva və İ.Əmirov hal-hazırda da SDU-nun İqtisadiyyat və idarəetmə fakültəsində uğurla çalışırlar.

**- Sumqayıt Dövlət Universitetinə gəlişinizin tarixi barədə bir qədər danışardınız...**

- Mən Sumyayıt Dövlət Universitetinə 1967-ci ildə gəlmişəm. Həmin dövrdə Bakı şəhərində yerləşən Azərbaycan Dövlət Plan Komitəsinin nəzdində olan elmi tədqiqat İqtisadiyyat İnstitutunda işləyirdim. SDU-da yerli kadrlar çatışmırdı. Mən Sumqayıtda yaşayırdım. Universitetdə həmin vaxtlarda nə iqtisadiyyat ixtisasları üzrə qəbul vardı, nə iqtisadiyyat yönümlü kafedra, nə də İqtisadiyyat fakültəsi. Universitetin partiya komitəsinin katibi mərhum dos. N.Məmmədov işlədiyim Elmi Tədqiqat İnstitutunun direktorunun yanına getmişdi və mənim SDU-ya keçməyimə icazə verməyi ondan xahiş etmişdi. İnstitutun direktoru - respublikada iqtisad elminin inkişafında xüsusi yeri olan mərhum professor M.Allahverdiyev mənim işdən çıxmağıma qəti etirazını bildirmişdi. Həmin dövrdə SDU-da tədris yalnız axşam qruplarında həyata keçirilirdi və mənim də əsas iş vaxtından sonra dərs aparmağıma rəhbərlik razılıq vermişdi. Buna görə də həmin dövrdən saathesabı SDU-da dərs aparmalı oldum.

Bazar iqtisadiyyatına keçid şəraitində iqtisadi fənlər siyahısına ilk dəfə olaraq "Bazar iqtisadiyyatının əsasları" fənnini biz təklif etmişik. SDU-da bu fənnə dair ilk dəfə B.İsayeva və İ.Əbdilovun həmmüəllifliyi ilə "Bazar iqtisadiyyatı haqqında" kitabını nəşr etdirmişik.

**- Sumqayıt Dövlət Universitetində çalışdığınız illərdə hansı əlamətdar hadisələri qeyd etmək istərdiniz?**

- Universitetin tarixində ən yaddaqalan, xoş hadisələrdən biri - 1980-1986-cı illərdə prof. R.Ə.Əliyevin rəhbərliyi ilə universitetdə Sumqayıt Alüminium Zavodunda soyuducular üçün buxarlandırıcıların istehsal texnologiyasına robototexniki komplekslərin tətbiqi istiqamətlərində elmi işlərin aparılması olmuşdur. Bu işlərə universitetin əksər kadrları cəlb edilmişdi. O cümlədən mən də bu işlərin yerinə yetirilməsində iştirak etmişəm. Həmin dövrdə yerinə yetirilən elmi işlərin nəticələrinə görə, 10-dan çox texniki elmlər üzrə doktorluq və 20-dən çox namizədlik dissertasiyası müdafiə etmiş, müvafiq alimlik dərəcəsini almışdılar. Etiraf etmək lazımdır ki, hal-hazırda mühəndislik fakültəsinin kafedralarda çalışan əməkdaşlarının 90%-dən çoxu həmin dövrdə alimlik dərəcəsi alanlardır.

Hələ "İqtisadiyyat və idarəetmə" fakültəsi yaranmamışdan əvvəl, 1983-1996-cı illərdə Azərbaycanın bir sıra tanınmış iqtisadçı alimlərini SDU-da tədrisə cəlb edə bilmişdim. Bunlara misal olaraq, i.e.d., akademik Ziyad Səmədzadəni, i.e.d., prof. Mahmud Tağıyevi, i.e.d., prof. Tərbiz Əliyevi, i.e.d., prof. Mehrəli Fərzəliyevi, i.e.d., prof. Məcid Axundovu, i.e.d., prof. Şəmsəddin Axundovu, i.e.d., prof. Gəncəli Gənciyevi və başqalarını göstərmək olar. Hal-hazırda da akademik Ziyad Səmədzadə universitetlə əməkdaşlığını davam etdirir, SDU-nun Elmi Xəbərlər məcmuəsinin redaksiya heyətinin üzvüdür.

**- SDU-da fəaliyyətə başlayandan indiyə qədər elə bir hadisə olubmu, yaddaşınıza həmişəlik həkk olunsun?**

- Əlbəttə, olub. Bazar iqtisadiyyatına keçid dövründə Azərbaycan iqtisadçılarının bazar iqtisadiyyatına münasibətləri eyni deyildi. İki qrup qütbləşmə vardı. Birinci qrup bazar iqtisadiyyatının əleyhinə, ikinci qrup isə bazar iqtisadiyyatına keçməyin tərəfdarı idi. Belə bir şəraitdə Azərbaycan Respublikasının Təhsil Nazirliyi qeyd etdiyimiz kitaba görə bazar iqtisadiyyatı haqqında dərslik yaza biləcək bir şəxs kimi 1997-ci ildə mənimlə dərslik yazmaq üçün müqavilə bağladı. Mən gecə-gündüz çalışaraq bir il ərzində bu kitabı hazırladım. Təhsil Nazirliyindən məni Azərbaycan Milli Elmlər Akademiyasının İqtisadiyyat İnstitutundan rəy almağa göndərdilər. Mən kitabın əlyazmasını AMEA-nın İqtisadiyyat İnstitutuna rəy üçün apardım. Lakin orada mənim yazdığım kitabı qəbul etmədilər.

- Sonra mən indiki Azərbaycan İqtisad Universitetinin prorektoru olmuş, Milli Elmlər Akademiyasının müxbir üzvü mərhum T.Vəliyevin qəbulunda oldum. Teymur müəllim əlyazmanın mündəricatına baxdı və məndən soruşdu ki, siz kimsiniz? Mən SDU-da kafedra müdiri olduğumu bildirdim. Aradan 15 gün keçmişdi. Məni yanına çağırtdırdı. Mən kabinetə daxil olarkən o, ayağa qalxaraq yanıma gəldi, məni qucaqlayaraq bildirdi ki, Albert müəllim, siz çox yaxşı tədqiqatçısınız. Tövsiyə edirəm ki, həmişə tədqiqat işilə məşğul olasınız.

Sonra özünün yenicə çapdan çıxmış kitabını mənə bağışlayaraq kitaba bu sözləri yazdı: "...İstedadlı bir tədqiqatçı kimi böyük uğurlar diləyirəm. Bu kiçik kitab hədiyyəmi Sizə təqdim etməyi özümə şərəf sayıram". Teymur müəllimin "həmişə elmi-tədqiqat işilə məşğul olun" sözü bu gün də qulaqlarımda səslənir və nə qədər ki, fiziki və zehni imkanlarım buna yol verir, bu işlə məşğul olacağam. Mənim ən böyük amalım ölkəmizin geniş əhali kütləsinin iqtisadi dünyagörüşünü, iqtisadi təfəkkürünü zənginləşdirmək olub. Tale elə gətirib ki, iqtisadi müstəqilliyimizin qazanılması, bazar münasibətlərinə keçid, innovasiya iqtisadiyyatının formalaşdığı bir dövrdə yaşamışam. Bu dövrün hər bir mərhələsində iqtisadçı fikrinə, iqtisadçı sözünə böyük ehtiyac var və indi də davam edir, xüsusilə, bazar münasibətlərinə keçidlə bağlı olaraq aparılan maarifləndirmə işlərində böyük həvəslə iştirak etmişəm. Buna əyani sübut kimi nəşr etdirdiyim "Bazar iqtisadiyyatı haqqında", "Bazar iqtisadiyyatının əsasları", "Bazar iqtisadiyyatı terminləri", "Bazar iqtisadiyyatı: peşə və ixtisaslar", "Azad iqtisadi zona", "Müəssisələrin idarəedilməsi (qabaqcıl dünya təcrübəsindən)", "Biznesin təşkili və idarəedilməsi" əsərləri və Azərbaycan İqtisadçılar İttifaqının mətbuat orqanı olan "İqtisadiyyat" qəzetində apardığım: "Müəssisələrin rəqabətlilik qabiliyyətinin yüksəldilməsi yolları"; "İdarəetmə üzrə qabaqcıl dünya təcrübəsindən"; "Biznes planının işlənilməsi"; "Müəssisələrin strateji idarəedilməsi"; "Biznesdə francayzinq dəstəyi" və s. rubrikalarda dərc edilən silsilə məqalələri göstərmək olar. Müasir iqtisadi inkişafın əsası olan " İnnovasiya" və formalaşmaqda olan "İnnovasiya iqtisadiyyatı" haqqında geniş rubrikalar qeyd edilən qəzetdə davam etməkdədir.

Bu sahədə nəşr etdirdiyim "İnnovasiya siyasəti" (H.R.Köçərli ilə müştərək), "İnnovasiya menecmenti" (İ.B.Əmirovla müştərək) və "İnnovasiya layihələrinin menecmenti" (F.Səfərovla müştərək) kitabları Azərbaycanın müxtəlif universitetlərində dərs vəsaiti kimi istifadə edilir. Ölkəmizdə əhalinin innovasiya fəallığının yüksəldilməsinə xidmət göstərmək məqsədilə "İnnovasiya" seriyası altında 10 kitabça nəşr etdirmişəm və bu ildən bu işə Azərbaycanın tanınmış alimlərini cəlb etmək niyyətindəyəm.

Yeri gəlmişkən qeyd edim ki, son 5 ildə innovasiya sahəsində nəşr etdirdiyim kitablara görə Çin Xalq Respublikası, Türkiyə Cümhuriyyəti, Avropanın bir sıra inkişaf etmiş ölkələri və digər türkdilli ölkələrin təsis etdiyi Türk Dünyası Araşdırmaları Beynəlxalq (Uluslararası) Elmlər Akademiyasının akademiki seçilmişəm və həmin Akademiyanın qızıl medalına layiq görülmüşəm.

Hal-hazırda Azərbaycan Azad İqtisadçılar İttifaqının Sumqayıt filialının sədri i.e.d. Q.O.Kərimovla birlikdə həmsədriyəm. İlk dəfə 1992-ci ildə şəhərin inkişafının gücləndirilməsi məqsədilə Sumqayıt şəhərində Azad iqtisadi zona yaradılması barədə ideya irəli sürmüşəm.

İşlədiyim müddətdə SDU-nun rəhbərliyi tərəfindən "Fəxri fərmanlar" və Təhsil Nazirliyinin "Təhsildə fərqlənməyə görə" medalına layiq görülmüşəm. 1998-ci ildə "İqtisadiyyat və İdarəetmə" fakültəsində aparılan "ən yaxşı müəllim" müsabiqəsinin qalibi olmuşam.

2004-cü ildə "Vektor" Beynəlxalq Elmi Mərkəzi Mükafat Komitəsinin qərarı ilə "Azərbaycanın Tanınmış Alimləri" Beynəlxalq Layihəsinin qalibi olmuşam və "XXI əsrin Tanınmış Alimi" Beynəlxalq Diplomu ilə təltif olunmuşam. 2006-cı ildə İqtisad elmində xidmətlərimə görə Türk Dünyası Araşdırmaları Uluslararası Elmlər Akademiyasının fəxri professoru adına layiq görülmüşəm. 2012-ci ildə KİV Həmkarlar təşkilatının keçirdiyi "Xalq ziyalısı" müsabiqəsinin laureatı olmuşam. SDU-da keçirdiyim günlərimi qürur hissi ilə yad edirəm.

**- 50 ildir bir məkanda, sizə doğmalaşan Sumqayıt Dövlət Universitetində işləyirsiz. Bu illər ərzində ən çox nəyə baxıb sevinmisiz, nəyə baxıb düşünmüsünüz ki, bu 50 il hədər getməyib?...**

- Vaxt olub yüksək vəzifələrə, yüksək əməkhaqqı almağa dəfələrlə başqa təşkilatlardan təkliflər almışam, bəzən rəhbərlik tərəfindən xırda iradlara da məruz qalmışam. Amma bütün bunlar mənim SDU-ya bağlılığımı qıra bilməyib. Hesab edirəm ki, doğma universitetimizin inkişafının çiçəkləndiyi bir dövrdə orada fəaliyyət göstərmədən yaşamaq mənim üçün mümkün deyildir.

Mənim SDU-da fəaliyyətim uzun müddət rəhbərlik etdiyim Menecment kafedrasının işi ilə əlaqədar olub. Bu kafedrada işlədiyim müddətdə kafedra əməkdaşları ilə birlikdə həddindən çox zəhmət tutumlu işlər yerinə yetirmişik.

Universitetdə dərs dediyim tələbələrin müvəffəqiyyətlərini gördükdə çox sevinirəm: baxın, onlardan Talıbov Natiq universitetin prorektorudur. Ağayev Ulduz Mühəndislik fakültəsinin; Əhmədova Tamella Energetika və fizika fakültəsinin; Muradov Mahal Kimya fakültəsinin; Yəhyayeva Aynurə İqtisadiyyat və idarəetmə fakültəsinin dekanıdırlar. Onların tələbə vaxtlarında hər birinə fərdi yanaşmışam. Yəqin ki, onlar da bunu xatırlayırlar. İqtisadiyyat və idarəetmə fakültəsinin professor-müəllim heyətinin 50%-ə yaxın hissəsinin müəllimi olmuşam. O cümlədən, İqtisadiyyat və idarəetmə fakültəsinin dekan müavini Mirzəbəyov Araz və İqtisadiyyat kafedrasının müdiri Mahmudova Lalə də tələbəm olmuşdur.

**- Sumqayıt Dövlət Universitetinin 55 illiyi yaxınlaşır. Universitetin zəngin tarixi var, gələcəkdə bu təhsil ocağını necə görmək istərdiniz?**

- Universitetlə bağlı həyatımı nəzərdən keçirərək, onu fəxrlə yad etməyə haqqım olduğunu dərk edirəm və bu, məni daha gərgin, daha məhsuldar işləməyə sövq edir. Universitetin tarixinə nəzər saldıqda tam əmin olursan ki, o çox sürətli inkişaf yolu mərhələsindədir: yeni-yeni ixtisaslar alınır; yeni şöbələr yaradılır; professor-müəllim heyətinin strukturu yaxşılaşır; elmi dərəcə və elmi ad alanların sayı günü-gündən artır; tədrislə əlaqədar bir sıra beynəlxalq layihələr həyata keçirilir və s. Bütün bu müvəffəqiyyətlərin qazanılmasında universitet rəhbərliyinin əməyi, xüsusilə universitetin rektoru, professor Elxan Hüseynovun təşəbbüskarlığı və uzaqgörənliyi danılmazdır. Qeyd edilənlərə əsaslanaraq bu qənaətə gəlmək olar ki, yaxın gələcəkdə Sumqayıt Dövlət Universiteti Azərbaycanın məşhur universitetləri səviyyəsinə qalxacaqdır.

**"İQTİSADİYYAT"**